

■ Allahverdi Buludlu

## MƏNİM ÜRƏYİMƏ DOLDU BU SEVGİ

Sakit uşaq idim bu günə qədər,
Bu dalana qədər, bu tinə qədər.
Hələ çıxmamışdım "Dirədöymə"dən
Hələ çatmamışdım sevginə qədər,
Qəfil ürəyimə doldu bu sevgi.

Baxırdım çayların su nəğməsinə,
Əl də vurmamışdım bu nəğməsinə.
Döndü ürəyimdə qu nəğməsinə,
Qəfil ürəyimə doldu bu sevgi.

İndi qol-budağı, dəhrəsi səndə,
Nənəmin sərnici, nehrəsi səndə.
Yoxsa iyi məndə, cəhrəsi səndə,
Əyirdin, gözümə doldu bu sevgi?

Baxırdım, arada durub keçirdin
Qara saçlarını burub keçirdin .
Sən demə, tellərin "Yanıq Kərəmi",
Sinəmə yaralar vurub keçirdin,
Ötdü ürəyimə doldu bu sevgi.

Bu da bir duyğudu, bu kef deyil ki,
Yığıb saxlamağa bir seyf deyil ki,
Qoy baxım, gözlərin bikef deyil ki?
Mənim ürəyimə doldu bu sevgi.

Mən bələdçi tapım, yolçu göndərim?
Ya münəccim tapım, falçı göndərim?
Yoxsa ürəyimi elçi göndərim,
Mənim ürəyimə doldu bu sevgi.

## GƏL

Səni görüb ayaqlarım dayanıb,
Ayaq açıb yeritməyə yeri, gəl.
İndiyəcən heç gəlməyib dilimə,
Əl açıram, yaman düşüb yeri gəl.

Havayıdı uzanıya gün keçə,
Eh, bəlkə də, mənim üçün gün gecə.
Göz önündən neçə gözəl gül keçə,
Diksindirməz ürəyimi biri, gəl.

Gözüm sənə uzanıyan yol olur,
O boyuna sarılmağa qol olur.
Görən niyə sevən dili lal olur,
Öyrənməyə mənə tərəf - sarı gəl.

Bu, sinəmdə qövr eyləyən yaramdı,
Yoxsa, görən, elə sənin yarandı?
Qulağıma heç dəyməyib yar andı.
Qoy toxunsun dodağıma barı, gəl.

İndi mənə irad tutmaz bir insan,
Barmaq qatla birin göstər, birin san.
Bir əlimi qaya elə, birini sal,
At həsrətə, vüsalı öp, bəri gəl.

## ATAM VƏ MƏN

Mən atamla çox mehriban olmuşam,
Həmişə də bir olubdu dərdimiz.
Bir sözündən çıxmamışam heç zaman,
Ancaq bizim yaş olubdu fərqimiz.

Dərdi olub mənim yaşa dolmağım,
Qayğısıyla ətirlənib gülmüşəm.
Mən atamın yaxşı çoban olmağın,
Çomağının arxasından bilmişəm.

Nəfəsi də baharın ilk nəsimi,
Nə səslənib, nə qışqırıb, yanıyıb.
Atam mənim ayağımın səsini,
İtimizin hürüşündən tanıyıb.

Məndə olub kənd içində bir gözü,
Bir gözü də ayrılmayıb sürüdən.
Sədr ilə çəp gələndə bir sözü,
Səsim olub ürəyini kiridən.

Bir saat da görməmişəm qolunda,
Soruşanda vaxtı, mənə gülübdü.
Barmaq tutub günəşin də əlində,
Kölgəsindən günortanı bilibdi.

Ötüşməyib bir günü də qış kimi,
Ayaqlarım çalmayıbdı "Qaytağı"
Ortasından qoyunların quş kimi
Qabağına keçib geri qaytarıb.

Qoymayıbdı mən utanam, çəkinəm,
Üz-gözümdə nə qəm olub qoparıb.
Alıb məni kəhər atın tərkinə,
Evimizə qaymaq kimi aparıb.

## BİLMİR

Sən yoxsan, sükutun götürüb məni,
Həsrətin gözündən süyrüşə bilmir.
Səni ha istəsəm yaddan çıxarım,
Ürəyim kimsəyə uyuşa bilmir.

Sənsizlik bir dərddi, əzabdı mənə,
Ən böyük bir haqdı, hesabdı mənə.
Başa sal, bu necə kitabdı mənə,
Oxuyuram gözüm alışa bilmir?

Buludlu, gəl daşı tök ətəyindən,
Asılı qalmışam gül ləçəyindən,
Əynimin köynəyin dəyişsəm də mən,
Ürəyim sevgini dəyişə bilmir.

## O DÜZƏ SARI

Aça, bağlamaya ayaqlarımı,
Bir qaçam, yüyürəm o düzə sarı.
Dərəm nəfəsimi, özümə gələm,
Arxamca yetişə o, düzə sarı.

Baxa, seyr eyləyə gözəl Aranı,
Çəpərə almaya göz, əl aranı.
Behiştə döndərə gözəl Aranı,
Mən qırmızı düzəm, o düzə sarı.

Əynində paltarı bu gül, bu xara,
Döndərə məni də bu gül buxara.
Mən Buludlu olam, bu gül buxara,
Düşə dodağımdan od üzə sarı.

## QOCALIQ

Yadına düşməyir cavan olanda,
Necə gülümsəyir, gülür qocalıq?
Hansı bir ömürdə ocaq qalayır,
Hansı bir ömürdə solur qocalıq?

Bilmirsən qayada, daşda yaşayır?
Gözdə yuva qurur, yaşda yaşayır?
Ayaqda gizlənir, başda yaşayır,
Hardan çıxır, peyda olur qocalıq ?

Sanırsan tək elə fağıra düşür,
Növbəyə dayanır, axıra düşür,
Saçında dən tapır, cığıra düşür,
Qaçır, düz üstünə gəlir qocalıq.

## EŞİT

Mən bilirəm öz ölçümü,
Vətən boyda, təndəyəm mən.
Doğruya torpaq əlçimi,
Əyriliyə rəndəyəm mən.

Eşit, yurdun ötən oğlu,
Şəhid oğlu, itən oğlu.
Qisas üçün, Vətən oğlu,
Onda, bunda, səndəyəm mən.

Ana-bala qucaq birdi,
Dədə-baba ocaq birdi.
Oğlum üçün Allahverdi,
Vətən üçün öndəyəm mən.

## SƏNƏ BİR MƏKTUB YAZMIŞAM

Sənə bir məktub yazmışam,
Mən öpmüşəm bərk cümləmi.
Açıb məktubu oxusan,
Görəcəksən tək cümləmi.

Yumru, balaca adadı,
Könül evi, bir odadı.
Orda ancaq mübtədadı,
Xəbəri tap, ək cümləmi.

Yandır onu nə kül elə,
Nə özünə vəkil elə.
Tək üşüyər şəkil elə,
Ürəyinə çək cümləmi.

Nə ot olsun, yarpaq olsun,
Nə bir bağça, ya bağ olsun.
Mən öləndə torpaq olsun,
Gözlərimə tök cümləmi.

